# Qarabağ münaqişəsi artıq bitib və status barədə heç bir söhbət gedə bilməz

***Prezident İlham Əliyev Türkiyənin "Anadolu" Agentliyinə verdiyi müsahibədə 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanmış müharibəyə aparan səbəblər haqqında dünya ictimaiyyətini də maraqlandıracaq çox önəmli məsələlərə aydınlıq gətirdi. Bildirdi ki, Ermənistan 30 il Azərbaycan torpaqlarını işğal altında saxlamaqla bərabər yeni savaşa hazırlaşırdı. Son dövrdə Ermənistan tərəfi Azərbaycana qarşı təxribatları daha da genişləndirmişdi. İşğalçı ölkə rəhbərliyinin yersiz və sərsəm açıqlamaları, eləcə də 2020-ci ilin iyul ayında düşmənin hərbi təcavüzü nəticəsində hərbçilərimizlə yanaşı mülki şəxslərimizi də qətlə yetirmələri onların yeni müharibəyə başlamaq niyyətindən xəbər verirdi.***

Möhtərəm Prezidentimiz bütün beynəlxalq təşkilatları, xüsusən, BMT-ni bu təcavüzə son qoyulması üçün Ermənistana təzyiq göstərməyə çağırırdı. Təəssüf ki, beynəlxalq təşkilatlar erməni təcavüzünə göz yumurdular. Münaqişənin nizamlanması missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupu vaxtında Ermənistana təzyiqlər göstərsəydi, bu müharibə baş verməzdi. Bölgəyə əhəmiyyətsiz səfərlər edən həmsədrlər yalnız bəyanatlar verməklə kifayətlənirdilər. Minsk qrupu əvvəllər status-kvonun qəbul edilməz olduğunu söyləsə də, sonradan bu fikirlərdən də yayındı. Azərbaycan tərəfi də haqlı olaraq Minsk qrupunun bu məsələni həll etmək fikrində olmadığı qənaətinə gəlmişdi.

Bütün bunlardan sonra Azərbaycan təkbaşına, öz gücünə beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, torpaqlarını hərbi və siyasi yolla işğaldan azad etdi.

Bu gün bəzi dövlət rəsmiləri "Qarabağın status məsələsi həll olunmayıb" fikirini söyləməklə hələ də əsl reallığı dərk etmirlər. Prezident İlham Əliyev qətiyyətlə erməni havadarlarına və ümumiyyətlə, hər kəsə bəyan etdi ki, Qarabağ münaqişəsi artıq bitib və status barədə heç bir söhbət gedə bilməz. Azərbaycanda Dağlıq Qarabağ adlı inzibati ərazi yoxdur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonası yaradılmışdır.

Son vaxtlar erməni təbliğat maşını Azərbaycan–Rusiya münasibətlərinə xələl gətirmək üçün müxtəlif yollara əl atır. Rusiya mediasında Azərbaycana qarşı böhtan dolu informasiyalar yayılır və hər vəchlə Azərbaycanı gözdən salmağa çalışırlar. Onların bu niyyəti də baş tutmadı. Ölkə başçısı İlham Əliyevin yeritdiyi müdrik siyasət nəticəsində Azərbaycan–Rusiya münasibətləri bu gün yüksək səviyyədədir.

Dövlət başçısının qeyd etdiyi kimi, Vətən müharibəsində türk xalqı hər an Azərbaycanın yanında oldu. Qardaş ölkənin Azərbaycanın yanında olması müharibədə bizə daha da güc vermiş oldu. Cənab Ərdoğanın kənardan Azərbaycana qarşı hər hansı müdaxilə olunarsa, qarşılarında Türkiyəni görəcəklərini vurğulaması, iki qardaş ölkənin bir-birinə necə bağlı olduğunun göstəricisi idi.

Dövlət başçısı müsahibəsində dünya ictimaiyyətinə bir daha çatdırdı ki, Azərbaycan sülhsevər dövlətdir və heç vaxt müharibə aparmaq niyyətində olmayacaq. Ölkə başçısı ermənilərə də xəbərdarlıq etdi: "Əgər onlar revanşist fikirlərə düşüb, Azərbaycana qarşı hər hansı hərbi təxribat törədərlərsə, həmin an məhv ediləcəklər".

Möhtərəm Prezidentimiz müsahibəsində Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətinə də toxundu. Bəli, Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti müsbət qiymətləndirilsə də, bir sıra məsələlərdə onların da işində nöqsanlar mövcuddur. Belə ki, Qarabağ ərazisinə Azərbaycanın icazəsi olmadan digər dövlətlərin vətəndaşları və nəqliyyat vasitələri daxil olurlar. Həmin ərazilərə hazırda Rusiya sülhməramlıları nəzarət edirlər. Azərbaycan ərazisi olan Qarabağa İran ərazisindən qeyri-qanuni yüklər daşınır. Özünü bizə dost və qardaş hesab edən İranın bu addımı suverenliyimizə və ərazi bütövlüyümüzə hörmətsizlik kimi sayılmalıdır. Azərbaycan tərəfi haqlı olaraq İran İslam Respublikasına bu barədə rəsmi nota ünvanladı. Buna məhəl qoymayan İran tərəfi yenidən qanunsuz hərəkətlərə yol verməyə başladı. Ölkə rəhbərliyi tərəfindən bu hərəkətlərin qarşısını almaq üçün adekvat addımlar atıldı və bundan sonra həmin məsələ öz həllini tapdı.

Möhtərəm Prezidentimiz bu müsahibəsində bir daha dünyaya Azərbaycanın sülhsevər ölkə olmaqla yanaşı, istər iqtisadi, istərsə də hərbi cəhətdən güclü dövlət olduğunu bəyan etmiş oldu. Başqa bir ölkə Azərbaycanla güc dilində danışmağa cürət etməməlidir. Çünki Azərbaycanda xalq öz liderinin, lider isə öz xalqının arxasındadır.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı, BDU-nun kafedra müdiri, professor***

Xalq qəzeti.- 2021.- 8 oktyabr.- S.7.